# Mustafa RASİMOĞLU - 60



Hörmətli Mustafa müəllim!

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1964-cü il fevralın 10-da Gəncə şəhərində anadan olmusunuz. Orta təhsilinizi Ağstafa şəhər orta məktəbində bitirdikdən sonra Bakı Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almısınız (1981-1986). Gəncə İnşaat Texnikumunda müəllim və kitabxana müdiri (1986-1992) işləmisiniz.

Vətənin ağır günlərində, 1992-ci ildən könüllü olaraq cəbhəyə yollanıb 8 il Azərbaycan Silahlı Qüvvələrinin tərkibində düşmənə qarşı Başkənd, Ağdərə, Tərtər, Qazax, Tovuz, Ağstafa istiqamətlərində gedən döyüşlərə qatılmısınız. Birinci Qarabağ müharibəsinin qazisi kimi ordudan mayor rütbəsində tərxis olunmusunuz.

BDU-nun Qazax filialında "Azərbaycan dili və ədəbiyyatı" kafedrasında baş müəllim vəzifəsində çalışmağa başlamısınız.

Keçən əsrin 80-ci illərindən yaradıcılıqla məşğulsunuz. Şeirləriniz "Ulduz", "Azərbaycan", "Elm və həyat", "Mərhəmət" jurnallarında, "Ədəbiyyat və İncəsənət" kimi nüfuzlu ədəbi orqanlarda və müxtəlif ədəbi almanaxlarda mütəmadi olaraq çap olunmuşdur. Şeirlərinizdəki vətənpərvərlik ruhu sizi oxucularınıza vətənpərvər bir şair kimi tanıtmış və sevdirmişdir.

1997-ci ildən AYB-nin üzvüsünüz. AYB-nin XII-XIII qurultaylarının iştirakçısısınız. Prezident mükafatına layiq görülmüsünüz.

2014-cü ildən AYB-nin Qazax bölməsində Ədəbi Məsləhətçi olmaqla yanaşı, BDU-nun Qazax filialında Pedaqoji fəaliyyətinizi də davam etdirirsiniz.

AYB Qazax bölməsinin orqanı - "Sınıq körpü" jurnalının məsul katibi və Qazax Xeyriyyə İctimai Birliyinin orqanı - "Dəli Kür" qəzetinin xüsusi müxbiri olmusunuz.

1992-ci ildə "Mənə ürək verin", 2003-cü ildə "Ürəklərə əkin məni" və 2014-cü ildə "Məni haraylayır Gəmiqayası" şeirlər kitablarınız işıq üzü görmüşdür.

Hörmətli Mustafa müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edirik, möhkəm cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**